**Ağcabədidə fəaliyyət göstərən kafedə keçirilən yoxlamaya dair məlumat**

**(3 iyul 2026)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Qarabağ regional bölməsinin əməkdaşları Ağcabədi rayonu, Ağcabədi–Bəhramtəpə yolunda yerləşən, fiziki şəxs Səfərov Röyal Bəhlul oğluna məxsus "Şah" kafesində yoxlama keçirib.

Yoxlama zamanı istehlaka təqdim edilən ət məhsullarına aid müşayiətedici sənədlərin olmadığı, süd və ət məhsullarının etiket məlumatları ilə təmin edilmədiyi, mal qonşuluğu prinsipinin pozulduğu, istifadə olunan suyun filtrdən keçirilmədiyi, müəssisədə mexaniki havalandırma sisteminin quraşdırılmadığı, müvafiq təmizlik işlərinin aparılmadığı müəyyən edilib.

Aşkarlanmış nöqsanlarla bağlı sahibkar barəsində inzibati xəta haqqında protokol tərtib edilib, nöqsanların aradan qaldırılması üçün icrası məcbur göstərişlər verilib.